1. **Dövlət peşə təhsil müəssisələrinə müəllim və istehsalat təlimi ustası vəzifəsinə işə qəbul üzrə müsabiqədə kimlər iştirak edə bilər?**

-Ümumtəhsil fənləri üzrə işə qəbul müsabiqəsində müvafiq ixtisas üzrə pedaqoji təhsilə malik olan orta ixtisas və ya ali təhsilli şəxslər, ixtisas modulları üzrə işə qəbul müsabiqəsində isə orta ixtisas və ya ali təhsilli və ixtisası üzrə istehsalat və xidmət sahələrində ən azı 1 il əmək stajı olan şəxslər namizəd kimi iştirak edə bilərlər.

2. **Müəllim və istehsalat təlimi ustası vəzifəsinə işə qəbul üzrə müsabiqə hansı mərhələlərdən ibarətdir?**

- Müəllim və ustaların işə qəbulu müsabiqəsi iki mərhələdən (test imtahanı və müsahibə) ibarət olmaqla mərkəzləşdirilmiş qaydada Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

3. **Namizəd haqqında məlumatların müsabiqənin şərtlərinə uyğunluğu necə müəyyənləşdirilir?**

-Namizəd haqqında məlumatların müsabiqənin şərtlərinə uyğunluğu Peşə Təhsili üzrə Dövlət Agentliyinin müsabiqə komissiyası tərəfindən araşdırılır və tələblərə cavab verən namizədlərin elektron ərizələri təsdiq edilir.

4. **Müsabiqənin test imtahanı mərhələsi necə keçiriləcək?**

-Test imtahanı kompüterdə elektron qaydada həyata keçirilir. Proqram təminatı hər bir namizədə fərdi test variantı təqdim edir.

5. **Test imtahanı mərhələsində namizədlərə hansı bölmələr üzrə test tapşırıqları təqdim olunacaq?**

- Müəllimlərin test imtahanında namizədlərə tədris edəcəyi ümumtəhsil fənləri və ya ixtisas modulları üzrə təhsil proqramlarına aid 40 sual, tədris metodikasına və təlim strategiyalarına aid 20 sual təqdim edilir.

- Ustaların test imtahanında namizədlərə tədris edəcəyi təlim modullarına aid 40 sual, təlim metodikasına  və təlim strategiyalarına aid 15 sual, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitar-gigiyena və yanğından mühafizə norma və qaydalarına aid 5 sual təqdim edilir.

**6. Müsabiqəyə hazırlaşan namizədlər üçün imtahan proqramı varmı?**

-Müsabiqənin test imtahanı və müsahibə mərhələsi ilə bağlı proqram portala yerləşdirilmişdir.

**7. Müsabiqədə keçid balı nə qədərdir?**

-Müəllimlərin işə qəbulu üzrə test imtahanında ümumtəhsil fənləri və ya ixtisas modulları üzrə təhsil proqramı üzrə minimun 34 bal və tədris metodikası və təlim strategiyaları üzrə minimum 6 bal olmaqla, ümumi 40 bal və daha yüksək nəticə göstərən namizədlər vakant yerlərin seçiminə buraxılır.

- Ustaların işə qəbulu üzrə test imtahanında təlim modulları üzrə minimum 32 bal və təlim metodikası və təlim strategiyaları üzrə minimum 6 bal, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitar-gigiyena və yanğından mühafizə norma və qaydaları üzrə minimum 2 bal olmaqla, ümumi 40 bal və daha yüksək nəticə göstərən namizədlər vakant yerlərin seçiminə buraxılırlar.

**8. Müsahibə mərhələsində namizədlərin bilikləri necə yoxlanılır?**

- Müsahibə mərhələsində namizədlərin ümumi dünyagörüşü, peşə keyfiyyətləri, ünsiyyət, təlimi planlaşdırma, təlimin təşkilində istifadə olunan forma və üsulları tətbiq etmək bacarığı komissiya tərəfindən yoxlanılır. Müsahibənin nəticəsinə əsasən namizədin vəzifəyə uyğun olub olmaması barədə qərar verilir.

11. **Hazırda müəllim işləyən şəxslər müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edə bilərmi?**

Hazırda müəllim vəzifəsində çalışan şəxslər cari müsabiqədə iştirak edə bilərlər.

12. **İşə qəbul müsabiqəsi nəticəsində namizədin topladığı balın növbəti işə qəbul müsabiqələrində rolu varmı?**

Müsabiqənin test imtahanı mərhələsində toplanmış bal yalnız həmin tədris ili üçün qüvvədədir.

13. **Müsabiqə başa çatdıqdan sonra tutulmayan yerlərə işə qəbul necə həyata keçirilir?**

Müsabiqə başa çatdıqdan sonra tutulmayan yerlərə müvafiq keçid balını toplayan namizədlərin müddətli müqavilə ilə işə qəbulu Peşə təhsili üzrə Dövlət Agentliyi tərəfindən proqram təminatı tətbiq edilməklə mərkəzləşdirilmiş qaydada həyata keçirilir.

14. **Müsabiqənin nəticələri ilə bağlı apellyasiya şikayətinə baxılacaqmı?**

Müsabiqə bitdikdən sonra yekun nəticələrə əsasən işə qəbul olunan müəllimlərin siyahısı Peşə təhsili üzrə Dövlət Agentliyi tərəfindən peşə təhsili müəssisələrinə göndəriləcəkdir. Müsabiqə nəticələri ilə bağlı apellyasiya müraciətləri müsabiqə bitdikdən sonra 5 gün ərzində Peşə təhsili üzrə Dövlət Agentliyində yaradılmış Apellyasiya Komissiyasına edilə bilər.